**Günay Hümbət qızı BABAYEVA**
BSU-nin Xarici Dillər Kafedrasının müdüri,
dosent, filologiya üzrə fəlsəfə doktoru
e-mail: gunasha79@mail.ru

# DİLÇİLİKDƏ DİSKURS VƏ DİSKURS NƏZƏRİYYƏLƏRİ

**XÜLASƏ**

Biz məqalədə diskurs və onun müxtəlif nəzəriyyələrindən bəhs edirik. Diskurs dilçilikdə mühüm bir anlayışdır. Diskurs inteqrativ hadisədir, geniş sosial-mədəni kontekstdə baş verən və həm linqvistik, həm də ekstralinqvistik planlara malik olan düşüncə-kommunikativ fəaliyyətdir. O, proses və nəticənin birləşməsi olaraq davamlılıq və dialoqluq ilə xarakterizə olunur. Diskursun inteqrativ hadisə kimi başa düşülməsi ünsiyyətin öyrənilməsinə, fəaliyyət yanaşmasına əsaslanır. Diskursun belə başa düşülməsinin əsasını sinergizm və qeyri-xəttiliyin ümumi elmi nəzəriyyəsi təşkil edir.

**Açar sözlər:** *diskurs, dilçilik, paradiqma, koqnitiv, semiotika, dil, gender.*

**UOT:** 81-116
**DOI:** 10/54414/GFEN5887

**Giriş**

Lüğətlərdə “diskurs” anlayışının mənaları arasında fərqlər vardır. İngilis dilində “diskurs” anlayışı “xütbə, müzakirə, bir şey haqqında danışmaq, çıxış etmək, elmi araşdırma [tezis], debat, təqdimat, söhbət, təklif, məsləhət, linqvistik vahid kimi mənalarda işlənir. O, terminoloji olaraq müəyyən sosial təcrübənin növündən asılı olaraq kodlaşdırılmış dil formalarının məcmusu kimi ortaya çıxır. Diskurs, müəyyən qaydalardan, terminologiyadan və nitqdən ibarət sistematik linqvistik sifarişləri təsvir etmək üçün istifadə olunan anlayış kimi təsnif edilir.

Dilçilikdə bir neçə diskus yanaşmaları vardır. Onlardan bir qismi aşağıdakılardır:

***1. Mifologiya, semiotika və hermenevtikaya əsaslanan diskurs yanaşmaları***

Fransız structuralist, antropoloq Klod Lévi Straussa görə, diskursa daxil olduğu üçün mif əslində bir növ diskursdur. O, mif diskurslarını araşdırdı və onun təhlil metodu sonralar diskurs semiologiyası üçün nümunə oldu. O, ikili ziddiyyətləri (yuxarı/aşağı, səma/yer) kolleksiya kimi öyrənmişdir. İnsanlar simvol və işarələrin köməyi ilə ünsiyyət qururlar. Levi-Strauss Boasın strukturist baxışının olmamasını tənqid edərkən, diskursun da bir nizamı olduğunu qeyd edir. Boas burada tez-tez müəyyən mövqedən uzaqlaşır, nağılı və ya mifi sadə bir hekayəyə endirməkdən imtina edir. Ştraus bütün diskursları mif kimi qəbul etmir. O, mifi diskursun bir hissəsi kimi qəbul edir. Ona görə də o, “diskursiv diskurs” anlayışından istifadə etmişdir. O hesab edir ki, mifin və deməli, diskursun nizamı fasiləsiz müxalifətlərdən ibarətdir. O, mifdə diskursun mənbəyini axtarır və onun ilkin hüdudlarını izah etməyə çalışır [10, 86-87].

Roland Bart nəzəri olaraq diskurs anlayışına Derridadakı kimi mətn, Levi-Strausdakı kimi mif kimi baxır. Onun fikrincə, diskurs və söz əsasən eynidir. O, bir semiotik kimi diskursun əhatə dairəsini genişləndirir və onu semiotik sistemə çevirir. Ona görə, bütün diskurslar mif ola bilər [1, 19-20].

Diskursun tərif və xüsusiyyətlərini Bartın nöqteyi-nəzərindən semioloji və mif kimi göstərməyə çalışdıqdan sonra, diskursu hermenevtika və təfsir prizmasından Pol Rikoeur və Umberto Ekonun baxışları ilə izah etməyə çalışacağıq.

Rikoer hesab edir ki, diskurs anlayışının ilk kəşf edildiyi kontekst belədir: yalan və doğru diskurs “affektlər”dir və diskurs bir-biri ilə əlaqəli olan iki əsas əlamətdir. Diskurs kod anlayışı ilə deyil, konkret danışan tərəfindən aşkar edilən mesaj anlayışı ilə bağlı olduğu üçün, müvəqqəti xarakter daşıyır. Bu baxımdan, o, diaxronik, dəyişkən, məqsədli, qeyri-anonim və sistemsizdir [13, 13].

Semiologiya tədqiqatçısı Umberto Ekonun diskurs anlayışı mətnə əsaslanır. Eko mətni dünya, dünyanı isə, mətn kimi təhlil etməyə meyllidir. O, Derridanın oxucu yönümlü paradiqmasına qarşıdır

və antik hermetizmlə Derridanın dekonstruksiyası arasında köklü oxşarlıqların olduğunu iddia edir ki, bunları aşağıdakı kimi sıralamaq olar:

- Müasir mətn qnostisizmi çox səxavətlidir. Biz hamımız həqiqəti, yəni müəllifin nə dediyini bilmirik, Çünki dilin onun yerinə danışdığını düşünürük.
- Mətni xilas etmək, yəni məna illüziyasını mənanın sonsuz olduğu şüuruna çevirmək üçün, oxucu mətnin hər bir sətirinin başqa bir gizli məna gizlətdiyindən şübhələnməlidir.
- Mətn, tərcüməçinin sonsuz qarşılıqlı əlaqələri kəşf edə biləcəyi açıq bir kainatdır.
- Dil özünəməxsus və əvvəldən mövcud olan mənanı qavraya bilmir: əksinə, onun vəzifəsi əkslərin görüşü olduğunu göstərməkdir.
- Dil düşüncənin qeyri-adekvatlığını əks etdirir: bizim dünyada varlığımız hər hansı transsendent məna tapa bilməməyimizdən başqa bir şey deyil.
- Birmənalı bir şeyə işarə etdiyini iddia edən hər hansı bir mətn uğursuz bir kainatdır [4, 57-58].

Ekonun diskurs anlayışında mətndə empirik bilikdən çox gizli bilik var. Həqiqət gizlidir, mətnin səthində deyil, təfsirdən asılı olaraq dərin və gizli strukturundadır. Bu baxımdan, hermetik düşüncəni mənimsəyir. Deməli, onun həqiqi idrakı izah edilə bilən şeylərdə deyil, izahı mümkün olmayan sirlərdədir. O, məqbul şərhlər dairəsinə zidd olaraq, qeyri-məhdud semioz anlayışını təqdim edir. Bir sirr ovçusu kimi o, mətndə çoxlu assosiasiyalara açıq olan anaqramlar, akrostikalar və izotoplar axtarır, arxetipik mətndən danışır, oxucunun və mətnin niyyəti arasında dialektik əlaqə yaratmağa çalışır [4, 84].

Semiotik Algirdas Julien Greimas diskurs semiotikası adlanan alt sahə haqqında danışır. Mətnin qavranılmasına xidmət edən mücərrəd strukturlar və bu mətndəki çevrilmələr də daxil olmaqla məntiqi semantik əməliyyatlarla müəyyənləşən dərin səth, mətnin sintaktik düzülüşünü üzə çıxaran morfoloji-sintaktik səviyyədən ayrılır. mətnlərdə isə sintaksis bir mənada dünyadakı fiqurlarla əlaqəlidir. Beləliklə, əvvəllər sosial elmlər sahəsində aparılan, lakin çox da inandırıcı olmayan məzmun təhlili cəhdlərinin yerini semiotika tutur [5, 160-163].

Hermenevtika nitqdən, yazılı sözlərdən və ya şəkillərdən ibarət mətnin ətraflı oxunmasını və ya araşdırılmasını vurğulayır və yazılı əsərlərin dilini şərh edərək keçmişi, dil məhsullarını anlamaq və şərh etmək funksiyasını öz üzərinə götürür.

Schleiermacher iddia edirdi ki, bütöv hissədən başlayaraq, hissə isə bütündən başlayaraq onlar arasında harmoniya yaratmaqla başa düşülə bilər. Əks təqdirdə, mətni anlamaq mümkün deyildir [16, 26-27]. Qadamer subyekt-obyekti fərqləndirən, mətnlə oxucunun "birliyini" müdafiə edən, anlama və şərhi vahid proses kimi görən şərhə qarşı çıxır. O, hermenevtikanı bütöv bir anlayışın xarakteri və şərtlərinin fəlsəfi tədqiqi kimi təyin edir və vurğulayır ki, hermenevtik fəaliyyət həmişə başqa bir dünyaya aid olan məna kontekstini insanın yaşadığı dünyaya köçürmək və ya tərcümə etmək fəaliyyətidir. Ona görə, anlamaq, süni anlayışın mənasının maskasını ortadan qaldırmaq, gizlədilən və ya başqa yolla ötürülən mənanın pərdəsini açmaqdır. Şərh, bir ənənədə yaranan diskursun açıq şəkildə ifadə olunmasıdır. Bu baxımdan, təfsir üçün diskursa ehtiyac vardır. Mətnin və ya şəxsin nə demək istədiyi, hər kəsin diskurs kimi qəbul etdiyi ifadələr təfsirlə aydınlaşır. Bu proses tərcüməçi ilə şərh edilən arasında körpü yaradır [9, 164-165].

**2. *Yazı/Mətn mərkəzli, ünsiyyət və siyasi əsaslı diskurs yanaşması***

Mətn mərkəzli diskurs yanaşmasının banisi J. Derridadır. Derridanın nəzəriyyələri linqvistik mərkəzli olsa da, onun təhlilləri qeyri-linqvistik, ədəbi-fəlsəfi təhlillərdir. O, dilin ilk və yeganə mətn olduğunu, başqa bir şey olmadığını iddia edir. O, yazı elmini [qrammato-logiya] inkişaf etdirməyə çalışdı. Derrida dekonstruktiv fəlsəfi və ədəbi təhlillər aparırdı. O, diskursa dərketmə nəzəriyyəsi kimi baxır. Ona görə, mətn, kodlaşdırma sahəsi deyil, kodları açmaq sahəsidir. Saf bir məna yoxdur. Heç bir diskurs gerçəkliyi olduğu kimi əks etdirmədiyinə görə, yalan və sünilik mətnə xasdır. Reallıq kimi təqdim edilən çərçivəni təmsil etməli və ya təhrif etməli olan diskurs əslində bir məhdudiyyətdir. Məna həmişə gecikən qeyri-sabit fenomendir [2, 14].

Dekonstruksionist Paul de Man diskursu, təfəkkürdəki abstrakt fiqur müstəvisinin konkret hərfi müstəviyə çevrilməsi kimi görürdü. Ona görə, ritorika ədəbi dillə yanaşı gündəlik dili də əhatə etmişdir. Hətta sözdə dil sırf məcazi məna daşıyır. Dil ritorikdir, dildəki bütün rəvayətlər alleqorikdir. Fiqur tərəfindən formalaşan alleqoriya, ikinci diskurs olan metaforadır. Yanlış

oxunuşlar bu ikinci diskursa görə baş verir. Mətndə hakim olan sabit mənanın olmaması, mətnin zənginliyinin göstəricisidir [6, 19-21].

Bir çox cəhətdən siyasi əsaslı diskurs yanaşması ideoloji diskurs yanaşmasından ayrılmazdır. Bu yanaşmanın ən mühüm nümayəndəsi olan Con Vilson diskurs və ideologiya məsələsində Peşe [Pêcheux] və Fukodan təsirlənmişdir. Onun fikrincə, bütün diskurs güc, münaqişə, nəzarət və hökmranlıq kimi mövzuların əlaqəsi ilə müəyyən edilir. Ona görə, ideologiya mücərrəd düşüncə sistemimin maddi formasıdır və diskurs bu maddi formanın bir variantıdır. Diskurslar strukturundan asılı olaraq transformasiya olunur. O, siyasi diskurs nəzəriyyəsini relativist/universalist dixotomiya vasitəsilə davam etdirirdi. Universalist kateqoriya dili relativistik kateqoriya diskursunu təmsil edir. Vilsonun isifadə etdiyi "təmsil" anlayışı başqalarının iradəsindən asılı olan, konseptual və diskursiv çevrilmələr nəticəsində yaranan bir təmsildir [8, 26-27].

Kommunikasiyaya əsaslanan diskurs yanaşmasının təmsilçisi alman sosial nəzəriyyəçisi J.Habermasın dil və diskursla bağlı fikirləri tənqidi dilçilik və tənqidi diskurs təhlilinin işinə təsir göstərmişdir. Onun fikrincə, diskurs, fəaliyyət kontekstində güzəştə getmiş kompromis hesab olunan ünsiyyətdir. O, diskurs nəzəriyyəsini dörd fərqli nöqtədən inkişaf etdirir:

1. Diskursun məzmunu həqiqət arqumentindən asılıdır.

2. Etibarlılıq arqumentini yaxşılaşdırmaq üçün, diskurs dinləyici tərəfindən natiqə meydan oxumaqla başlayır. Etibarlılıq iddialarının üç növü (həqiqət, normativ düzgünlük, dürüstlük) olduğu üçün, müvafiq olaraq üç növ danışıq (nəzəri, əxlaqi və estetik) mövcuddur. Diskurs mübahisə deyil, çox mürəkkəb nizam-intizamlı bir təcrübədir.

3. O, diskurs dili və ya nitqin sinonimi deyil, konsensusa nail olmağa yönəlmiş aydınladıcı nitq formasıdır.

4. O, filosofların rəhbər tutduğu linqvistik fəaliyyətin özünəməxsus formasını deyil, gündəlik həyatın əsasında duran ümumi əsaslandırma və mülahizə praktikasını ifadə edir [15, 73-75].

***3. Hekayəyə, intertekstuallığa və fərdə əsaslanan diskurs yanaşması***

Hekayə əsaslı diskurs yanaşması, fransız tənqidçisi və ədəbiyyat nəzəriyyəçisi Jerar Genettenin "Povestin diskursu" adlı əsəri ilə inkişaf etdirilmişdir. Buradakı diskurs hadisəni və ya hadisələrin ardıcıllığını təsvir etməyi öhdəsinə götürən şifahi və ya yazılı nitqdir. Həqiqi və ya saxta hadisələrin ardıcıllığı onların bağlılıq, qarşıdurma, təkrar əlaqəsinə aiddir. Bu, ötürülən hadisəyə deyil, bir-birinin bir şey çatdırdığı zaman baş verən hadisəyə aiddir. Burada aydın şəkildə vurğulanan, ilk növbədə Genettenin rəvayətçinin münasibəti və seçimi ilə bağlı olan danışıq növü, rəvayətçinin hekayə diskursunu qavraması və nəhayət, zaman, yəni hekayə vaxtı ilə hekayə vaxtı arasındakı fərqdir [11, 63-64].

Strukturist Jak Lakanın fikrincə, diskurs şüuraltıdır və o, gizli mənanın arxasındadır. Bu nəzəriyyə mövzu ilə bağlı olduğu üçün, şüurlu və şüuraltı terminləri ilə birlikdə qurulur. Lakan üçün diskurs dilçilərin istifadəsindən çox fərqli, həddən artıq müəyyən edilmiş münasibətlər şəbəkəsidir. Diskursda hazırda deyilənlərdən çıxarıla bilən birbaşa məna yoxdur. Lakin, diskurs üçün uydurma və xarici məna vardır. Söhbətin mənası həmişə digər qeyri-diskursiv proseslərin kəsişdiyi yerdədir. Bu səbəbdən, məna fərqli nöqtələrdə və fərqli idrak səviyyələrində yerləşir. O halda, diskurs şüurlu və şüuraltı dillərin, sosial simvolların və düşüncə subyektivliyinin kəsişmə nöqtəsidir [12, 55].

Fransız filosofu Lui Althusser diskurs növləri vasitəsilə nitq nəzəriyyəsini inkişaf etdirir və aralarındakı keçidləri və fərqləri ortaya qoyur. Onun fikrincə, "şüursuzluq" regional psixoanalitik nəzəriyyənin nəzəri obyektidir. Althusser nitqi, növlərinə görə ayıraraq [şüursuz diskurs, ideologiya diskursu, elmi diskurs və estetik diskurs] diskurs nəzəriyyəsini formalaşdırmağa çalışır. Bütün bu diskursların ümumi bağlayıcısı mənadır. Diskursun fəaliyyəti də mənaya təsir etmək üçündür. Məna effekti nitqin fəaliyyətinin ən mühüm komponentidir. Althusser müxtəlif növ nitqin elementlərinə görə fərqlər qoyur. Onun üçün dilin fonetik obrazları konstruktiv şəkilçilər (fonemlər), elmin səs obrazları olan anlayışlar (sözlər), estetik və ideoloji diskursun müxtəlif səs obrazları (səslər, sözlər, rənglər, emosiyalar, əl jestləri, davranışlar, manealər kimi digər praktikada və diskurslarda olan bütün elementlər), şüursuzun səs obrazları olan xəyali fantazmlardır. O, daha sonra bu növlərin funksional fərqlərini açıqlayır:

- tanınma aşkarlama funksiyaları (sənət);
- müxtəlif strukturlarla, dillə bağlı səs təsvirlərinin dövriyyə funksiyaları;
- informasiya funksiyaları (elm);
- tanıyan-tanımayan funksiyalar (ideologiya) [14, 73-79].

Mişel Peşonun diskurs təhlilinə ən böyük töhfəsi onun empirik diskurs tədqiqatları aparmaq üçün alətlər hazırlaması oldu. O, texniki mənşəyə əsaslanan "empirik" ideologiya ilə siyasi mənşəyə əsaslanan nəzəri "spekulyativ" ideologiyanı fərqləndirir. Bu məqamda o, ideologiyaların funksiyalarının bu iki müxtəlif formasını təsvir etmək üçün, linqvistik terminologiyanı təqdim edir. Ona görə, diskursun "spekulyativ forması" və ümumi forması altında bir-birinə istinad edən artikulyasiyalara aiddir. Bu terminləri dilçilikdən köçürdükdə deyə bilərik ki, ideologiyanın empirik forması semantik funksiya yerinə yetirir, işarə edənlə işarələnənin üst-üstə düşməsi, əksinə, spekulyativ forma sintaktik funksiya yerinə yetirir. İdeoloji prosesləri sintaktik və semantik təsirin vəhdəti kimi başa düşmək lazımdır. Birinci təsir işarələnənin reallığını təmin edir. Sonuncu, ideoloji konyukturada diskursda təqdim edilə bilən bütün digər şeylər arasında düzgün yer tutur [7, 644].

1981-ci ildə Beaugrande və Dressler mətnə kommunikativ hadisə kimi baxdılar və mətnin müxtəlif funksiyaları haqqında danışdılar (məqbulluq, məlumat, əlaqəlilik, məqsədyönlülük, kontingentlik və nəhayət intertekstuallıq). İntertekstuallığın həm diskursun sərhədlərini genişləndirən, həm də digər diskurslardakı oxşarlıqlarla üst-üstə düşərək onu məhdudlaşdıran bir cəhəti var. Beaugrande linqvistik ünsiyyəti "mənanın müzakirəsi" kimi təyin edir. Boqrand və Dressler mətn və diskurs terminlərini diskurs baxımından fərqləndirirlər. Müvafiq olaraq, mətn natiq/müəllif tərəfindən hazırlanmış dildir, diskurs bir-biri ilə əlaqəli mətnlər toplusudur. Mətn müəyyən ölçülərin və idrak proseslərinin qarşılıqlı təsiri nəticəsində meydana çıxan, bir niyyətə görə təşkil edilən və əsas linqvistik xüsusiyyəti davamlılıq kimi göstərən məhsuldur. Beaugrande və Dresslerdə iki növ kontekstdən danışmaq olar. Biri mətnin öz daxilində yaratdığı nəzəri kontekst, digəri isə, mətnin yarandığı situasiya və onun yaratdığı əlaqələr kontekstidir. Bu baxımdan, nəzəriyyədə mətnlərarasılıq mətnin özünün xüsusiyyəti deyil, digər mətnlərlə qurduğu məna əlaqələri ilə ortaya çıxan xüsusiyyətdir. Odur ki, hər hansı mətn özlüyündə bir bütöv ola bilər, lakin özü-özlüyündə diskurs təşkil edə bilməz. Beaugrande və Dresslerə görə, diskurs oxşar kommunikativ funksiyalarla yüklənmiş mətnlərdən ibarət bütövdür. Bu funksiyaların cəmiyyətdə necə inkişaf etməsi ayrı bir məsələdir [3, 19-24].

***4. M. Fuko: Biliyə [episteme] əsaslanan diskurs yanaşması***

Biz burada M. Fukonun 1971-ci ildə "Bilik arxeologiyası" əsəri ilə ortaya qoyduğu biliyə əsaslanan diskurs yanaşmasını (episteme) daha geniş şərh edəcəyik. Çünki bu gün müxtəlif sahələrdə yaşanan müxtəlif problemlərin dərindən təhlilini aparmaq, müasir və ya postmodern dünyaya yeni bir baxış bucağı gətirmək, anlayışların nə olduğunu görmək üçün, Fukonun diskurs təhlili xüsusi önəm daşıyır. Diskurs hazırda özümüzdə olduğumuz vəziyyətin ifadəsidir. Şeyi təqdim etməyin və ya izah etməyin bütün yolları və üslubları diskurs adlanır. Diskurs təhlilinin üç xüsusiyyəti var:

- Birinci xüsusiyyət, onun sosial olmasıdır. Diskursun sosial tərəfi harada, kim tərəfindən, necə və kimin üçün və ya hansı söz və mənalar üçün istifadə olunmasından asılıdır. Sosial və nəzəri strukturlar sözlərin mənasını dəyişməyə qadirdir. Bu fakt universal diskursun formalaşmasına imkan vermir.
- İkinci xüsusiyyət, bir-birinə zidd olan müxtəlif diskursların olmasıdır.
- Üçüncüsü, diskurslar arasında ziddiyyətlər ola bilər və ya onlar iyerarxiyada ola bilər. Diskurslar güc, münaqişə və iyerarxiya forması haqqındadır. Diskursların istehsalı ilə gücün istifadəsi arasında nəzəri əlaqə olduğuna görə, güc anlayışı diskursun təhlili üçün vacibdir. Diskurs və güc çox vaxt bir-biri ilə iç-içə olduğundan, bəzi nəzəri təriflərdə onların oxşar şeylər kimi qəbul edildiyi görülür [17, 35-38].

Fukonun diskurs nəzəriyyəsinin ikinci elementi var. O, biliyin güc-iqtidar kontekstinə malik olduğunu tezis kimi irəli sürür. Onun üçün güc-iqtidar-bilik üçlüyünün xüsusilə siyasi faktoru olduğu görünür. Buna görə də, Fuko vurğulayır ki, biz diskurs nəzəriyyəsini dil yönümlü nəzəriyyələrdən ayrı nəzərdən keçirməliyik. Fukonun dil və diskursla bağlı müşahidələri və tarixi mətnlərin təhlili diskursun sosial

nəzəriyyəsini ortaya qoyur. Bu nəzəriyyədə diskurs bir təmsildir, arzu və gücü daşıyan da bilikdir [18, 13].

Fukonun nəzəriyyəsində nitqin dil kimi qaydaları və nizamı var. Ona görə, diskurs ya doğru, ya da yalan olacaq müddəalar yaratmağa imkan verən imkanlar sistemi olduğu halda, diskursun məntiqi dəyərinə diqqət yetirilir. "Düşüncə" prosesdə "diskursa" çevrilir. Diskurs dünyaya baxışı yaradan və dağıdan şeydir. Bir növ, diskursun "ontoloji" və "ontogenetik" funksionallığı var. Diskurs daşıyıcıları dünyadakı ideoloji strukturları dəyişdirmək üçün, özlərinə yer aça bilər. Söhbət təkcə döyüşləri, qadağaları və ya zülm sistemlərini deyil, həm də sahib olunmalı olan gücü ehtiva edir. Onun fikrincə, müəyyən tarixi dövrə aid olan dominant diskursiv strukturlar həmin dövrün bir çox sosial-mədəni şeylərini üzə çıxarır. Postmodernizm subyekti "müəyyənedici" statusdan "müəyyən edilmiş" mövqeyə keçir. Mətn, dil və ya güc tərəfindən qurulur. Fukoya görə o, öz şəxsiyyəti və xarakteri ilə ayrı-ayrı bədənlərə, hərəkətlərə və istəklərə tətbiq edilən güc-iqtidar münasibətinin məhsuludur. Siyasi diskurs və bio-siyasət həmişə hakimiyyət formaları ilə ziyalılar arasında diskurs tezisini təşkil edir. Bu biosiyasət ilə ziyalıların bəzi funksional rolları var. Fuko ziyalının siyasiləşməsinin müəyyən problemlər yaradacağına, ancaq həqiqəti söyləməkdə məsul olan ziyalıların özlərinin də güc sisteminin bir parçası olduğuna diqqət çəkir və onların "şüurun" agenti olması fikrini deyir [17, 113].

Fukoya görə, hər bir fərd fərqlidir və bu fərq fərdlərin müxtəlif diskurslarının mənbəyidir. Müxtəlif tarixi dövrlərdə bəşəriyyət bir-birindən fərqli maskalardan istifadə etdiyinə görə, hər bir fərdin diskursu həm tarixən, həm də zaman baxımından bir-birindən fərqlidir. Foko iddia edir ki, sosial strukturlar dilin istifadəsi üçün, müxtəlif qaydalar müəyyən edir. Bu qaydalar, fərdlərə sosial quruluş və məna arasında əlaqə yaratmağa təsir edir və ictimai strukturların iqtidar əldə etmək və bu gücü saxlamaq üçün bu prosesə ehtiyacı vardır [17, 66-69].

Fuko diskurs strukturlarını araşdırarkən əsasən iki üsuldan istifadə edir: arxeologiya və geneologiya. Arxeologiya tarixi proseslərin mərkəzində diskursiv formasiyalar yaratmaqla yanaşı, epistemik sahələrin və onların məzmununu təşkil edən nəzəriyyələrin yaranmasına imkan verir. Bu nəzəriyyələrin epistemik şərtləri şəcərə-iqtidar münasibətləri kontekstində siyasi təhlillərdir. Genealogiya isə, iqtidar formalarının və gücün mahiyyətinin təhlili ilə bağlı bir araşdırma deyil, gücün harada olduğu ilə bağlı bir araşdırmadır. Onun arxeologiyası nitqlə məşğul olduğu halda, geneologiya güc və iqtidar münasibətlərinin təhlili ilə məşğul olur. Onun diskurs təhlilinin üç forması (informasiya sistemləri, güc formaları və "Mən" anlayışı) müvafiq olaraq arxeologiya, geneologiya və etika kimi konseptuallaşdırılır. Arxeoloji təhlil Fukonun diskurs təhlilində mühüm yer tutur. Arxeoloji təhlil diskursları ortaya qoyur və onları təsvir edir. Bu aydınlaşdırma və təsvir o deməkdir ki, arxeoloji təhlil diskursiv formasiyaları bir-biri ilə müqayisə edir, onları ümumi zamanında bir-birinə qarşı qoyur, eyni zamanda, onları onlarda olmayanlardan fərqləndirir və qeyri-diskursiv praktika ilə əlaqəyə qoyur. Genealogiya isə, iqtidar formalarının və iqtidarın mahiyyətinin təhlili deyil, gücün harada olması ilə bağlı araşdırmadır. Arxeologiya diskursiv təcrübələrin səviyyəsini sübut etməyə və bu təcrübələrin yaranması və transformasiyası ilə bağlı qaydalar toplusunu aşkar etməyə çalışsa da, şəcərəni diskursiv təcrübələrə uyğun olan güc qüvvələri və əlaqə formaları ilə əlaqələndirmək olar. Fukonun istifadə etdiyi üçüncü analiz növü olan etika insanın özü ilə əlaqəsinin tədqiqidir [17, 126]. Onun "Cinsiliyin tarixi" adlı əsərində etika ilə bağlı düşüncələri, eqonun gücün hökmranlığı altında olması, lakin eqo üzərindəki gücün tezisinin kənardan deyil, müəyyənedici faktorun bədənin özündən meydana çıxmasıdır.

Fukonun əsərlərində bir mərkəz varsa, o, mətnlər və dildir. Qadamer kimi Fuko da mətnin özü ilə maraqlanır. O, mətnin istifadə etdiyi kateqoriyaları formalaşdıran apriorini kəşf etməyə çalışır. Fuko intellektual, elmi və siyasi təcrübələri sırf empirik, induktiv statusları yerindən çıxarmaq üçün "diskurslar" kimi müəyyən edir. Bundan əlavə, diskursun bir sıra müxtəlif törəmələrin müəyyən edilməsi yollarından ibarət olduğunu söyləmək olar. Fuko yaradıcılığında diskurs, arxeologiya, şəcərə və etika çox mühüm təhlil formalarıdır. Bu təhlil formaları müasir diskursiv təcrübənin çərçivəsini təşkil edir. Bundan əlavə, bu təhlil formaları insanın cəmiyyətdəki funksiyasını və mövqeyini tapmaq cəhdi kimi müəyyən

edilə bilər. Digər tərəfdən, diskurs anlayışı epistema qədər vacibdir. Əslində diskurs, Fukonun bütün əsərlərində tez-tez istifadə etdiyi mühüm açar termindir [17, 86].

Diskurs təhlilinin müxtəlif üsulları var. Fukonun diskurs təhlilində ilk olaraq araşdıracağımız xarici prosedurlar və ya istisna prosedurlarıdır. İstisna prosedurları özlüyündə yasaqlanmış söz, dəlilik payı və həqiqətpərəstlik olaraq üçə bölünür. Burada bir-birini istisna edən, gücləndirən və ya tarazlaşdıran üç növ qadağadan bəhs olunur [17, 24].

Fukoya görə, diskursun sosial problemlərlə də qnoseoloji əlaqəsi var. Bu nöqtədə epistemenın müəyyən edilməsi bir neçə əsas arqument təqdim etmək üçün vacibdir. Epistema tükənməz bir sahə təşkil edir və bu sahəni bağlamaq çətindir. Bir dövrün bütün biliklərinin asılı olduğu postulatlar sistemini yenidən qurmaq məqsədi daşımır. Lakin, o, əvvəldən axıra qədər sonsuz bir əlaqə sahəsini tamamlamağa çalışan bir xüsusiyyətə malikdir. Elmlər qnoseoloji formalar, pozitivlik və diskursiv praktikalar arasındakı münasibətlərin məcmusu kimi, müəyyən bir anda özünü diskursa qoyan ziddiyyətlər və məhdudiyyətlər sahəsini təşkil edir və bu baxımdan qnoseoloji strukturların ontoloji strukturunu təşkil edir [17, 79].

Fuko hesab edir ki, elmi diskursun tarixi təhlili son mərhələdə bilən subyektin nəzəriyyəsinə deyil, "diskursiv praktika" nəzəriyyəsinə tabe olmalıdır. O, tarixin avrosentrik mütaliəsi ilə bağlı qiymətləndirməsində dilin diskursiv formasiyaların əsasında mühüm yer tutduğuna diqqət çəkir. Onun fikrincə, dil sənəti öz semiotik cəhəti ilə həm nəyəsə işarə edir, həm də nəyinsə ətrafında işarələri təşkil edir. Fuko subyekti yalnız diskurslarda mövcuddur. Fuko çox spesifik diskurs nümunələrini və istifadə etdikləri diskursdan əvvəl mövcud olmayan diskursların özünəməxsus subyektlərinin kəşf üsullarını təhlil edərkən, ictimai diskurs praktikalarının formalaşmasına yol açmışdır. Metodoloji mənada Fuko özünün digər post-pozitivist sələflərinə qarşı yeni sosial nəzəriyyə qurmağa çalışan biri kimi deyil, daha çox sosial praktikanın konkret problemləri ilə məşğul olan biri kimi müəyyən edilə bilər. Sosial praktikanın konkret problemləri, ümumiyyətlə, hakimiyyətlə bağlı hesab olunurdu.

Fukonun diskurs nəzəriyyəsində müəyyən etdiyi mühüm element biliyin güc/iqtidar əlaqəsini ehtiva etməsidir. Fuko iddia edir ki, diskurs tənzimlənən sosial təcrübələrin əksidir və beləliklə, biliklə yanaşı gücü də təcəssüm etdirir. Bilik və güc/iqtidar tarixin daxil edilməsi praktikasında birləşir. Müəyyən bir diskurs çərçivəsində kateqoriyaları təcəssüm etdirən tezis təkcə biliyi deyil, həm də güc/iqtidarı formalaşdırır, İqtidarın fərd həyatının bütün sahələrinə gözəgörünməz şəkildə yerləşdiyini deyən Fuko bilik-güc əlaqəsini təhlil edərkən, bunun elmi fənlər sayəsində cəmiyyətdə mövcud olan müxtəlif qurumlar vasitəsilə həyata keçirildiyi tezisini irəli sürür.

Fuko ziyalının siyasiləşməsinə diqqət çəkir və həqiqəti söyləməkdə məsul olan ziyalıların özlərinin də güc sisteminin bir parçası olduğunu bildirir. O deyir ki, ziyalılar şüurun və diskursun agenti olduqda, bu sistemin bir parçası olmaq xüsusiyyətinə malikdirlər. Fukoya görə, kütlənin həqiqəti bilməsi üçün ziyalılara ehtiyacı yoxdur. Söhbət həqiqəti bilməmək problemi deyil, bu cür danışıq və biliyə mane olan, qadağan edən və etibarsız edən güc sistemindən gedir. Məhz belə bir mühitdə, Fukoya görə, ziyalının rolu hamı haqqında dilə gətirilməmiş həqiqəti söyləmək üçün "irəli və ya kənara çəkilmək" deyil, daha doğrusu, ziyalının rolu "bilik", "həqiqət", "şüur" və "diskursun" formalaşdırdığı qaydada hakimiyyət formalarına qarşı mübarizə aparmaqdır. Burada bu formalar həm obyekt, həm də vasitə olur. Həqiqəti bilmək iradəsinə can atan ziyalılar həqiqəti ört-basdır etməyə çalışanlara qarşı şüurlu və vicdanlı müqavimət göstərərək, ictimai və siyasi funksiyalarını yerinə yetirərək üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışmalıdırlar [17, 91].

**Nəticə**

Elmdə diskurs məsələsinə müxtəlif yanaşmalar və nəzəriyyələr vardır. Bunlar humanitar elmlərdə dilçilik, dil fəlsəfəsi, antropologiya, etnologiya, sosiologiya, psixologiya və psixoanaliz kimi fənlərin düşüncələri ilə formalaşan fənlərarası yanaşmalardan ibarət nəzəriyyələrdir. Biz onları tematik və tarixi əlaqələndirmə ilə təsnif edərək izah etdik. Diskurs, struktur və kontekstual ardıcıllığa malik olan və fərdlərə sosial kontekstdə məna qurmağa imkan verən linqvistik materialın alətləri kimi görünür. Mənanın qurulmasına vurğu diskursun əməliyyat perspektivini ehtiva edir. Habermasa görə, sözə salınan, deyilənlər heç vaxt

sadə cümlə və ya sintaksis deyil, deyilənlərin məzmundan başqa özünəməxsus ruhu var. Söhbət və nitq aktlarının mənası onların qurulduğu subyektlərarası məzmundan irəli gəlir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Barthes, Roland. The pleasure of the text. Hill and Wang, [Electronic resource] - New York 1975, 67 p. URL: https://www.academia.edu/9693187/Barthes_roland_the_pleasure_of_the_text
2. Derrida, Jacques. Of Grammatology. [Electronic resource] - Baltimore: Johns Hopkins University Press Baltimore and London 1997. – 444 p. URL: https://monoskop.org/images/8/8e/Derrida_Jacques_Of_Grammatology_1998.pdf
3. Dressler, W. Beaugrande R. Introduction to Text Linguistics. London, Longman 2002. – 288p.
4. Eco, Umberto. Semiotics and the philosophy of language. [Electronic resource] - USA: İndiana University Press 1986. - 254. URL: https://monoskop.org/images/b/b3/Eco_Umberto_Semiotics_and_the_Philosophy_of_Language_1986.pdf
5. Greimas, A. J. Maupassant: The Semiotics of Text. [Electronic resource] - trans. Paul Perron. Amsterdam and Philadelphia: J. Benjamins, 1988. URL: https://benjamins.com/catalog/sc.1
6. Paul de Man. The Post-Romantic Predicament, Martin McQuillan, editor, 2012 – 248 p.
7. Pécheux, Michel. Discourse: Structure or Event?", trans. Warren Montag, with Marie-Germaine Pêcheux and Denise Guback. In Marxism and the Interpretation of Culture, eds. Cary Nelson and Lawrence Grossberg. Urbana and Chicago: University of Illinois Press, 1988, pp. 633–650.
8. Wilson, John. Language & the Pursuit of Truth. The Syndics of the Cambridge University Press 1969 – 105 p.
9. Гадамер Х.-Г. Истина и метод [Электронный ресурс] / Пер. с нем.; общ. ред. и вступ. ст. Б. Н. Бессонова. — М.: Прогресс, 1988.-704с. URL: http://yanko.lib.ru/books/philosoph/gadamer-istina_i_metod.pdf
10. Григорьева, В. С. Дискурс как элемент коммуникативного процесса: прагма-лингвистический и когнитивный аспекты: [Электронный ресурс] / монография / В.С. Григорьева.- Тамбов: Изд-во Тамб. гос. техн. ун-та, 2007. – 288 с. URL: https://www.tstu.ru/book/elib/pdf/2007/k_Grigoreva.pdf
11. Женетт, Жерар. Фигуры. М., том 2. Изд-ство имени Сабашниковых 1998. – 472 с.
12. Лакан Ж. Функция и поле речи и языка в психоанализе. - [Электронный ресурс] / М: Гнозис, 1995. URL: https://web.archive.org/web/20090207153609/http://anthropology.rinet.ru/old/library/lakan-soder.htm
13. Рикёр, П. Конфликт интерпретаций: Очерки о герменевтике/ [Электронный ресурс] / Пер. с фр. И. С. Вдовина. - М.: Канон-Пресс-Ц: Кучково поле, 2002. URL: https://web.archive.org/web/20080520005243/http://elenak
14. Соколова Л.Ю. Историко-философские вопросы во французском структурализме// отв. ред. Л. В. Цыпина История философии: традиции и современность. - СПб.: Издательство Санкт-Петербургского университета, 2011. - С. 70-82.
15. Хабермас, Ю. Философский дискурс о модерне: [Электронный ресурс] / пер. с нем. М. М. Беляева и др. -- М.: Весь мир, 2003. -- 416 с. URL: http://yanko.lib.ru/books/philosoph/habermas-filosof_diskurs_o_monerne-2003-8l.pdf
16. Шлейермахер. Ф. Герменевтика. — Перевод с немецкого А.Л.Вольского. [Электронный ресурс] / Научный редактор \Н.О.Гучинская.]— СПб.: «Европейский Дом». 2004. — 242 с. URL: https://ktds.org.ua/-/media/files/1/4/1460405536-frydryx-shleiermaxergermenevtyka2004.pdf
17. Фуко, М. Ненормальные: Курс лекций, прочитанных в Коллеж де Франс в 1974-1975 учебном году [Текст] / [Электронный ресурс] / М. Фуко. -СПб.: Наука, 2005.-432 с. URL: http://library.khpg.org/files/docs/1456766931.pdf
18. Фуко М. Слова и вещи: археология гуманитарных знаний. [Электронный ресурс] / - М.: Прогресс, 1977. – 407 с. URL:

https://monoskop.org/images/3/39/Фуко_Мишел _ Слова_и_вещи.pdf.

**Гюнай Гумбат кызы БАБАЕВА**
заведующий кафедры иностранных языков БСУ,
доцент, доктор философии по филологическим наукам
электронная почта: gunasha79@ma

## ДИСКУРС И ТЕОРИИ ДИСКУРСА В ЛИНГВИСТИКЕ

**Резюме**

В статье мы говорим о дискурсе и его различных теориях. Дискурс является важным понятием в лингвистике. Дискурс представляет собой интегративное явление, мыслительно-коммуникативную деятельность, протекающую в широком социокультурном контексте и имеющую как лингвистический, так и экстралингвистический планы. Для него характерны преемственность и диалог как сочетание процесса и результата. Понимание дискурса как интегративного явления основывается на деятельностном подходе к изучению коммуникации. Такое понимание дискурса основано на общенаучной теории синергизма и нелинейности.

**Ключевые слова**: дискурс, лингвистика, парадигма, когнитивность, семиотика, язык, гендер.

**Gunay Humbat BABAYEVA**
Chairman of Foreign Languages, BSU,
Associate Professor, PhD in Philology
E-mail: gunasha79@ma

## DISCOURSE AND DISCOURSE THEORIES IN LINGUISTICS

**Summery**

We talk about discourse and its various theories in the article. Discourse is an important concept in linguistics. Discourse is an integrative phenomenon, a thought-communicative activity that takes place in a broad socio-cultural context and has both linguistic and extralinguistic plans. It is characterized by continuity and dialogue as a combination of process and result. Understanding discourse as an integrative phenomenon is based on an activity-based approach to the study of communication. This understanding of discourse is based on the general scientific theory of synergism and non-linearity.

**Keywords**: discourse, linguistics, paradigm, cognitive, semiotics, language, gender.

**Access date:** 02.07.2022